## *PEDAQOJİ TƏNQİD VƏ BİBLİOQRAFİYA*

# “MİLLİ ƏXLAQ VƏ AİLƏ ETİKASI” DƏRSLİYİ HAQQINDA

**_Kamal Həsən oğlu Camalov_**
*pedaqogika üzrə elmlər doktoru, Əməkdar müəllim*
*Naxçıvan Müəllimlər İnstitutu*




Görkəmli mütəfəkkir-pedaqoq Mirzə Əbdürrəhim Talıbov yazır ki: “Mənşə, rəng, cins və digər mənsubiyyətlərdən asılı olmayaraq, hər xalqın, hər millətin elə oğul və qızları olmuşdur ki, öz təfəkkür, bilik və ilham mənbələrindən qidalanaraq, əbədiyyətə qovuşan əsərlər yaradıb, ümumbəşər xəzinəsinə vermişlər. Bunlara alimlər, mütəfəkkirlər və sənətkarlar ordusu deyərlər. Bütün bəşəriyyətin borcu budur ki, bunların bizə bəxş etdiyi abidələri və əbədi mirası həvəslə öyrənib, hər kəs öz gücü və qavraya bildiyi qədər onlardan pay götürsün. Bu elm və ədəb xəzinəsindən payı çox olanın səadəti də çox olar”. Bəli, belə əbədiyyətə qovuşan və ümumbəşər xəzinəsinə çevrilən əsərlərdən biri də pedaqogika elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar müəllimi Akif Nurağa oğlu Abbasovun “Milli əxlaq və ailə etikası” adlı dərsliyidir (Bakı: Mütərcim, 2010, 320 səh.). Əminliklə deyə bilərik ki, Nizaminin, Sədi Şirazinin, Marağalı Əvhədinin, Nəsirəddin Tusinin və digərlərinin əsərləri ilə çağdaş dövrümüz arasında neçə yüzilliklər varsa, Akif Abbasovun müdrik fikirlər, hekayələr, sual və tapşırıqlarla zənginləşdirdiyi “Milli əxlaq və ailə etikası” adlı dərsliyi də gələcək yüzilliklər içərisində həmişə vərəqlənəcək, əldən-ələ keçəcək əsərlərdən olacaqdır.

Çağdaş dövrümüzün ən iqtidarlı alimi, görkəmli pedaqoq və yazıçılarından olan Akif Abbasovun “Milli əxlaq və ailə etikası” adlı dərsliyi dörd bölmədən (fəsildən) ibarətdir. “Milli əxlaq və ailə etikasının ümumi məsələləri” adlı I bölmədə Akif müəllim əxlaqın yaranması və inkişafından, Azərbaycan şifahi xalq ədəbiyyatındakı milli-mənəvi dəyərlərdən, “Avesta”da, islam dinində və “Kitabi-Dədə Qorqud” dastanında əxlaqi təlimin mahiyyətindən, həmçinin Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Şah İsmayıl Xətayinin, Məhəmməd Füzulinin, Azərbaycan maarifçilərinin yaradıcılığındakı ailə münasibəti məsələlərinin incə və həssas məqamlarından söz açmış, tədqiq-təhlil süzgəcindən keçirmişdir. Müqəddəs kitablardakı

tərbiyəedici imkanlardan, həmçinin Zərdüşt peyğəmbər (ə), Məhəmməd Peyğəmbər (ə), Həzrəti Əli (ə), övliya bildiklərimiz Abdullah bin Mübarək, Əbdül Qadir Gilani, Əbu Səid Xərraz, Cüneyd Bağdad, Sirri Sədəqi və başqa bu kimi böyük zatlardan bəhs edən professor ailə münasibətlərində mənəvi xarakter(lər) müəyyənləşdirmişdir.

Bu bir faktdır ki, əsrlər keçmiş, bəşəriyyət tarixində köklü dəyişikliklər, yeni dəyişikliklər olmuşdur. Ancaq Akif Abbasovun sözləri ilə desək əxlaq nə qədər inkişaf etmiş olsa da, forma və məzmun dəyişsə də yenə də ötən əsrlərdə ailə haqqında deyilən tərbiyəvi fikirlərin dəyəri heç də azalmamışdır. Bu gün də ailəyə bağlılıq, qadının sədaqəti, kişi qeyrəti, qadın isməti, ailənin şərəfini qorumaq və s. milli dəyərlər arasında xüsusi yer tutur. Xalq pedaqogikasına geniş yer ayıran Akif Abbasov bu kimi ibrətamiz misallar gətirir: "Arvadın isməti-ərin izzəti", "Varını itirən az şey itirər, namusunu itirən çox şey", "Ailə xoşbəxtliyin açarıdır", "Ağıllı gəlinin ailədə üzü ağ olar", "Ağıllı gəlin ər evində həm yarıyar, həm qarıyar", "Ailədə yanılmaq yamanlıq gətirər", "Ailənin üzüağlığı namusdur", "Ailəyə xor baxan aləmə də xor baxar", "Ailənin sirri, sözü ailədə qalar", "Arvadı tənbəl olan kişinin işi əngəl olar" və s. Professor haqlı olaraq qeyd edir ki, xalq təfəkkürünün ən gözəl, bariz nümunələrinin toplandığı folklor insanları mənəvi baxımdan saflaşdırır, bir şəxsiyyət kimi kamilləşdirir, yetkinləşdirir. Belə nümunələr ailə və məktəb uşaqlarının, yeniyetmə və gənclərin tərbiyəsində istifadə olunmalıdır.

Professor Akif Abbasov "Avesta" və islam dinindəki ailəyə ciddi münasibətlərin formalaşdırılması məsələlərini də xüsusi diqqət mərkəzində saxlamışdır. Hər iki əsərdən nümunələr gətirərək göstərir ki, ailə tərbiyəsi prosesində bihudə yerə tələbkarlığı azaltmaq, ehtiyac duyulmadan tərbiyə olunana acıyaraq rəhmdillik, yersiz mərhəmət göstərmək, güzəştə getmək, sərt tədbir görmək, lazım gəldiyi halda bağışlamaq uşağın əxlaqını pozar, onu ərköyün, sözeşitməz edər.

Görkəmli alim, professor Akif Abbasov "Kitabi-Dədə Qorqud"da ailə tərbiyəsi nümunələrini də ətraflı və maraqlı şəkildə tədqiq-təhlil süzgəcindən keçirmişdir. Belə ki, Oğuzlarda övlada valideyn məhəbbətini; oğlan və qızlara ad qoyma mərasiminin necə və hansı şəkildə təşkil olunmasını; qadına münasibəti; ailə şərəfini; ömür-gün yoldaşlarını necə seçmələrini; ailədə uşaqlar arasında qarşılıqlı münasibətlərin necə tənzimlənməsini; ailələrdə uşağa(lara) tələbatın həllinin necə tapmasını təsvir etmişdir. Müəllif yazır ki, Oğuzlarda ailənin şərəfini qorumaq ailənin bütün üzvlərinin müqəddəs borcu, vəzifəsi hesab edilmişdir. Bu gün də türk dünyasında, Azərbaycan xalqında bu hiss son dərəcə güclüdür. Ailənin namusunun, qız-gəlinin ismətinin qorunması üçün cavanlarımız, ailənin başçıları, qadınlarımız tarixən hər cür məhrumiyyətlərə, əzab və işgəncələrə sinə gərmiş, mübarizə aparmışlar.

Bildiyimiz kimi, Dədə Qorqud 54 öyüd söyləmişdir. Bu 54 öyüdün 16-sı ancaq ailə və ailə tərbiyəsi ilə bağlı öyüdlər sayılır ki, Akif müəllim də bu kimi öyüdləri anlaşıqlı və sadə dildə təhlil obyektinə çevirmişdir. Akif müəllim dərs vəsaitinin "Kitabi-Dədə Qorqud"da tərbiyə məsələləri" adlı yarımbölməsində övlada olan ata sevgisini, ana məhəbbətini, ailədə uşaqlar arasındakı qarşılıqlı münasibətləri boylardan gətirdiyi faktlarla, misallarla təsvir edir və bütün bunları ailə etikasının rəmzi hesab edir. Belə ki, Baybörənin oğlu Beyrəyin "ölüm" xəbərini eşitməsi və atanın ağlamaqdan gözlərinin tutulması, 16 illik ayrılıqdan sonra oğluna qovuşması, oğlu olduğuna əmin olması üçün, oğlunun (Beyrəyin) çəçələ barmağını qanadıb dəsmala silib gözlərinə çəkməsini, gözləri açılarsa, gözlərinə yenidən nur gələrsə oğlu olacağına inanacağını; Dirsə xanın xainlər tərəfindən aldadılaraq oğlu Buğacı ölümcül yaralaması, ananın dağ çiçəyi və ana südü ilə oğlunun yarasına məlhəm qoyub sağaltması; Beyrəyin bacılarının hər gedib-gələndən Beyrəyi sormalarını, ələmə-yasa batmalarını və s. Akif Abbasov psixoloji baxışdan entuziast bir sənətkar kimi xarakterizə edir.

Demokratik fikirlər müəllifi Akif Abbasov Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində Məhin Banunun Şirinə poetik dillə dediyi öyüd dolu sözləri eyni ruh, eyni görüşlə nəsr dilinə çevirərək mənəvi gözəllik ölçüləri ilə oxucusuna çatdırması da təqdirəlayiqdir. Dərslikdən oxuyuruq: "Sən (Şirin – K.C.) bütün gözəllərin sultanısan, sənin bircə nazın yüz şahlığa dəyər; xoşbəxtlik sənin ardınca kölgə tək gəzir. Gözəlsən, camalın yer üzünə nur saçır, fəqət, sənin bəzə-

yin ismətdir, nəzakətdir, hüsnün ismətinin pənahındadır" [Bax: səh.50]. Bu bölmənin təhlili bir daha göstərir ki, Akif müəllimin dili diqqətəlayiqdir. Akif müəllim dilin hissi cəhətinə, təsirli olmasına çox əhəmiyyət verir. Professorun dili bir şeir qədər ahəngdar və ifadəlidir, oxucusuna lirik bir parça təsiri bağışlayır.

"Əxlaqın əsas kateqoriyaları" adlanan (vicdan, namus, ismət, həya, məsuliyyət, şərəf və ləyaqət, xeyirxahlıq və yaxşılıq və s.) ikinci bölmədə Akif müəllimin mövqeyi daha çox böyükdür. "Əxlaqın əsas kateqoriyaları" adlı bölmədə müasirlik biz oxucuları hər şeydən daha çox maraqlandırır. Çünki ədəbiyyatlardan gətirdiyi yüksək bədii mövqeni misallarla, məsəllərlə qiymətləndirdiyi kimi, onun ictimai-tərbiyəvi rolunu da yüksəkdə tutur. Vicdan nədir? sualına "Vicdan şəxsiyyətin öz davranışına görə mənəvi məsuliyyəti anlamasının bir formasıdır" – cavab verən Akif Abbasov etibarlı mənbələrdən, müxtəlif şair və yazıçılardan da maraqlı misallar gətirir. Yazır ki, vicdanlı insan pislik toxumu səpməkdən uzaq olur. Belə insanlar çalışırlar ki, həyatda fəal mövqe tutsunlar. Təhsil alan, işləyən insanlara qayğı ilə yanaşsınlar. Tək özlərinin yox, ətrafdakı insanların da sevincinə, kədərinə şərik olsun, xeyirxahlıq, qayğıkeşlik göstərsin. Belələri çalışırlar ki, sonradan peşmançılıq çəkməsinlər. Vicdan bəzi xüsusiyyətlərə malikdir: ideala can atmaq; şəxsi qiymət; hərəkət və davranışın ideala uyğun olması, yaxud olmaması nəticəsində meydana gələn mənəvi hiss və s. Professor vicdanın oyaq olması, adama düzgün yol göstərməsi üçün özünəhesabatı vacib amil hesab edir. Əgər insan günü başa çatandan sonra – ötən saatları necə keçirdim, ondan səmərəli istifadə edə bildimmi? Məktəbdə, işdə üzərimə düşən vəzifəni layiqincə yerinə yetirdimmi, yoxsa günümü birtəhər ötüşdürdümmü? Kiminsə xətrinə dəydimmi? Bu və ya digər hadisə baş verərkən mənəvi borcuma əməl etdimmi? Kiminsə bədxahına çevrilmədim ki? bu və ya bu kimi başqa suallarına cavab axtarırsa deməli vicdanı qarşısında da cavab verir. Həyanı vicdanın barometri hesab edən Akif müəllim gənc ailələrdən vicdanı, abırı, həyanı itirən insanlardan kənar olmağı tövsiyə edir. Yazır ki, belələrindən hər cür pislik, mərdiməzarlıq, alçaqlıq gözləmək olar. İnsan taleyi ilə oynamaq həmin şəxslər üçün heç nədir. Belə ünsürlər cəmiyyət qarşısında, vətən, xalq qarşısında məsuliyyət daşımaq istəmirlər. Vicdanını itirənlər yalnız özlərini düşünür, öz firavanlığı, mənafeləri üçün çalışırlar.

Akif Abbasov "Milli əxlaq və ailə etikası" dərsliyində şərəf və ləyaqət, namus, ismət, həya, məsuliyyət, xeyirxahlıq və yaxşılıq və s. söhbət açarkən belə anlayışların qədim tarixə kökləndiyini misallar və izahlarla açıqlayır. Yazır ki, feodalizm dövründən başlayaraq bəy, ağa, zadəgan, xan, hersoq, qraf, baron və knyaz kimi titulların sahibləri şərəf, namus və ləyaqət baxımından öz şəxsiyyətlərini digər insanlardan üstün hesab etmiş, belə məfhumlara böyük dəyər vermiş, bəy, ağa, qraf, knyaz adlarına ləkə gətirməkdən çəkinmişlər. Professor "O olmasın, bu olsun" bədii filmindən misal gətirir: Rüstəm bəy qumarda uduzur. Daha pulu olmadığı üçün ayağa qalxaraq uduzduqlarını qaytaracağına masa ətrafındakılara inandırmaq üçün tituluna and içir: "Uduzduğum pulları yarım saatdan sonra gətirərəm. Mən bəy kimi namusuma and içirəm" – deyir. Şərəf, namus və ləyaqət hissi bəzi bəy, ağa, xanlarda lovğalıq, xudpəsəndlik, şöhrətpərəstlik, heç kimi bəyənməmək, harınlıq da yaradırdı. Ancaq bəy, ağa, xanların bir çoxu, sözün həqiqi mənasında, şərəf, namus, ləyaqət nümunəsini göstərir, özlərini ağayana – əsl insan kimi aparmışlar. Bu mənada, Akif müəllim İsmayıl Şıxlının "Dəli Kür" romanındakı Cahandar ağanı oxuculara xatırladır. Təbii ki, bu fikirlərdən heç də belə anlaşılmasın ki, şərəf, namus, ləyaqət ancaq bəy, ağa, zadəgan, xan, hersoq, qraf, baron və knyaz kimi titulların sahiblərinə aid edilməlidir. Xeyir, heç də elə deyil. Bu gün cəmiyyətin ayrı-ayrı üzvləri şərəf, ləyaqət və namusu var-dövlətdən, titul və rütbədən, vəzifədən də uca tuturlar. Akif Abbasovun atalar sözü və zərbi-məsəllərdən, həmçinin görkəmli mütəfəkkirlərdən gətirdiyi misal və məsəllər də təqdirəlayiqdir. Bunlardan bir neçəsinə nəzər salaq: "Varını itirən az şey itirər, namusunu itirən-çox şey"; "Namusu itə atdılar, it yemədi"; "Ağlın varsa, gücə, qızıla, nüfuza tabe olma! Qoy sənə rəhbərlik edən ancaq təmiz vicdanın olsun (Xaqani Şirvani)"; "Sizə yaxşılıq edildiyi vaxt siz də yaxşılıq edin (Məhəmməd peyğəmbər)"; "Bacardığın qədər yaxşılıq toxumu ək ki, yaxşı bəhrə götürəsən (Hümam Təbrizi)"; "Mənəvi borc insanlar arasında münasibətlərdən

yüksəkdə durur (İmmanuel Kant)”; “Çalış öz dövrənə həmişə əxlaq, namus və qeyrət hasarı çək (Marağalı Əvhədi)”; “Kişinin qeyrəti olmasa, məsləki də olmaz (Keykavus)”; “Namuslu adamlar üçün namus, alim üçün alimlikdən daha əzizdir (Jan Jak Russo)”.

Akif Abbasov, həmçinin “Milli əxlaq və ailə etikası” adlı dərsliyində maraq dolu suallar da yaratmışdır. İnsan nə üçün yaşayır? Həyatın mənası varmı, varsa – nədədir? Hansı həyat tərzinə üstünlük verilməlidir? Yaşamağa dəyərmi? Xoşbəxtlik var-dövlətdir, yoxsa...? Belə maraq dolu suallara Akif müəllim özü də cavab verir. Dərslikdə qeyd edildiyi kimi, bəziləri güman edirlər ki, insan dünyaya gəldi, yaşadı, öldü – bu dövr, bu müddət onun həyatıdır. Əslində isə bu belə deyil. İnsanın mənalı, məzmunlu, cəmiyyət və ailəsi, bəşəriyyət üçün gördüyü işlər, onlar üçün yaşayıb fəaliyyət göstərdiyi faydalı, məhsuldar ömrü onun əsl həyatıdır. Mənasız sərf etdiyi, sadəcə yeyib-yatdığı, ailəsinin gözündən oğurlayıb çəkdiyi kef, necə deyərlər, “papağını günə yandırdığı”, insanlığa fəlakətlər gətirdiyi günlər, adamların iztirabına, göz yaşlarına, kədərinə, bəxtəvərliyinə, əzab-əziyyətinə, işgəncəsinə səbəb olduğu anlar onun ömrünə yazılmır, yazılsa da, qara hərflərlə yazılır.

Akif müəllim dərslikdə cəmiyyət və ailəsi üçün gördüyü işlərdən, onlar üçün yaşayıb fəaliyyət göstərən Azərbaycan xalqının iftixarları sayılan Rahib Məmmədovdan, Mübariz İbrahimov kimi igid, qorxmaz cəsurlardan da bəhs edir. Bir zamanlar Biləsuvarda böyüyüb boya-başa çatan Mübariz İbrahimovu tanıyanlar, zənnimizcə, onlarla idi. Ordu sıralarında vətəni xidmətini yerinə yetirən zaman nə qədər üzdəniraq erməni əsgərlərini, zabitlərini, generallarını və sursatlarını məhv etmişdisə ermənistanda matəm elan olunmuşdur (2010-cu ilin iyun ayı). Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən Mübariz İbrahimovun ailəsinə də Azərbaycan xalqının məhəbbəti sonsuzdur. Böyük Vətən Müharibəsində igidlik göstərən Mehdi Hüseynzadə, Gəray Əsədov, Həzi Aslanov, Qafur Məmmədov və digərlərinin adını çəkiriksə II Qarabağ uğrunda gedən döyüşlərdə Qarabağı mənfur düşmənlərdən qanı bahasına geri alan minlərlə şəhidlərin və qazilərin adını çəkmək olar. Professorun qeyd etdiyi kimi, ana torpağı öz canları-qanları bahasına qorumuş şəhidlər və qazilər hər bir ailənin övladlarına örnəkdir, nümunədir. İnsan ömrü çox da uzun deyil, ona görə də bu həyatı mənalı yaşamağa çalışmaq lazımdır. Anri Barbüsün dediyi kimi: Ölmək yox, yaşamamaq dəhşətdir.

Tədqiqatçı-alim Akif Abbasov “Ailə etikası” adlı üçüncü bölmədə “Oğlan və qızların qarşılıqlı münasibətlərinin əsasları”, “Sevənlərin davranış mədəniyyəti”, “Nikah”, “Ailə üzvlərinin hüquq və vəzifələri”, “Ailənin mənəvi əsasları”, “Ailənin psixoloji iqlimi”, “Ailə bayramları”, “Ailə büdcəsi” və s. məsələlərdən bəhs edir. Ailə – insanların qarşılıqlı əlaqə, fəaliyyət və münasibətlərinin ən qədim təsisatı, unikal hadisə və təzahürüdür – deyən professor ailəni ictimai-tarixi hadisə adlandırır. Həmçinin, ailənin bir sıra funksiyalarına (reproduktiv, təsərrüfat-iqtisadi, ünsiyyət, tərbiyə, ailənin asudə vaxtının və istirahətinin təşkili, bərpaedici və s.) da aydınlıq gətirmiş və təhlil süzgəcindən keçirmişdir.

Professor “Milli əxlaq və ailə etikası” dərsliyinin “Ailə və uşaqlar” adlı dördüncü bölməsində də (“Gənc ailədə uşaq” səh.287; “Ailədə uşaqların tərbiyəsi. Ata və ana ilk tərbiyəçilərdir” səh.295; “Ailədə tərbiyənin prinsip və metodlarından istifadə” səh.308) ailədə tərbiyənin prinsip (Uşaqların yaş, cinsi və psixoloji xüsusiyyətlərinin nəzərə alınması prinsipi; Tərbiyədə fərdi yanaşma prinsipi; Hörmət və tələbkarlıq prinsipi; Tərbiyə olunanın müsbət cəhətlərinə istinadən qüsurların aradan qaldırılması (nikbinlik) prinsipi; Uşağın diqqətini mənfi nümunələrə yönəltməklə davranış normalarından kənaraçıxma hallarının qarşısını almaq prinsipi; Tərbiyəvi təsirlərdə vahidliyin gözlənilməsi prinsipi; Sistematiklik və ardıcıllıq prinsipi) və metodlarından (alışdırma, öyüd-nəsihət, söhbət, rəğbətləndirmə və cəzalandırma, şəxsi nümunə və s.) necə istifadə etməyin yollarına aydınlıq gətirmiş və həmçinin, aydın, səlis, rəvan sözlər və cümlələrlə şərh və izah etmişdir.

Əbəs yerə demirik ki, aydın zəka sahibi Akif müəllim “Milli əxlaq və ailə etikası” adlı dərsliyində ailə münasibəti məsələlərini səlis, rəvan dillə və sadə, aydın cümlələrlə şərh və izah etmişdir. Bir çox dərsliklərə nəzər salan zaman görürük ki, çox müəlliflər hər hansı bir mövzunu tədqiq və təhlil etməyə çalışarkən

(Məsələn, deyək ki, Ailə tərbiyəsi; Ailəyə pedaqoji kömək; Ailənin psixoloji iqlimi; Ailə bayramları; Sinif rəhbərinin ailə ilə işi və s.) daha çox aşağıdakı şəkildə yazırlar: Valideynlər Konvensiyanın uşağın yaşamaq hüququ haqqında müddəalarını bilməlidir(lər); Ailə ənənələrin varisliyini təmin etməlidir(lər); Sağlam ailələrdə valideynlər və uşaqlar gündəlik təbii münasibətlərə bağlı olmalıdır(lar); valideynlər öz uşaqlarının xarakter və xüsusiyyətlərini bilməlidir(lər) və s. və i. Göründüyü kimi, dır, dir, lar, lər. Ancaq professor Akif Abbasov istiqamətvericiliklə yanaşı hər bir mövzuda fikirləri aydın işıqlandırmış, portret rəssamı kimi əlvan rənglərlə, boyalarla canlandırmış, oxucusunu fikirlər, anlayışlar aləminə səfərbər etmişdir. Bu da təbii ki, hər bir oxucuda xeyirxah əməllər sahibi olmaq əzmini, emosionallığı, mənəvi tələbatları daha da qüvvətləndirir.

Akif Abbasovun "Milli əxlaq və ailə etikası" adlı dərsliyindəki fikir və görüşlərə yekun vurarkən aşağıdakı nəticələrə gəlirik:

1. Pedaqogika elminin inkişafında yorulmaq bilmədən axtarışlar aparan cəfakeş tədqiqatçı Akif Abbasov Azərbaycan ailəsində milli əxlaqımızı və onun tələblərini əsas götürərək qarşılıqlı münasibətlərin qurulmasını pedaqoji-psixoloji məqamlarla araşdırmışdır;

2. Pedaqoji və psixoloji biliklərin azmanı Akif Abbasov Azərbaycan şifahi xalq ədəbiyyatı, "Avesta", islam dini və "Kitabi-Dədə Qorqud" dastanlarındakı şəxsiyyətin keyfiyyətlərinin inkişafı qayğısına qalmağı vacib tələb kimi irəli sürmüş və işıqlandırmışdır;

3. Tarixi həqiqətləri zərrə-zərrə üzə çıxarmış Akif Abbasov Nizami Gəncəvinin, Sədi Şirazinin, Marağalı Əvhədinin, Nəsirəddin Tusinin, Məhəmməd Füzulinin, A. Bakıxanovun, M.F. Axundovun və b. mənəvi-əxlaqi kamilliyə, insani davranışa çağırış və ailədə əxlaqi keyfiyyətlərin təbliği ilə bağlı mövqelərini müəyyənləşdirmişdir;

4. Pedaqogika elminin yorulmaz təbliğatçısı Akif müəllim Azərbaycan ailəsində pedaqoji-psixoloji, milli-mənəvi xüsusiyyətləri, adət və ənənələri, valideyn-oğlan münasibətləri, oğlanlarla qızların dostluğuna münasibəti, sevənlərin davranış mədəniyyətini, nikah, geyim və gözəlliyin vəhdətindəki qanunauyğunluqları müəyyənləşdirmiş, təhlil süzgəcindən keçirmişdir;

5. Alicənab duyğular və nəcib hisslər carçısı Akif Abbasov Azərbaycan ailəsində oğlan və qızların sosiallaşmanın xüsusiyyətlərini müəyyənləşdirmiş və çağdaş mərhələdə sosiallaşma anlayışının mahiyyəti və məzmununa aydınlıq gətirmişdır;

6. Milli ruh və milli düşüncə təbliğatçısı Akif Abbasov qızların oğlanlarla ünsiyyəti, yaşlılarla qarşılıqlı münasibətlərinin pedaqoji-psixoloji məsələlərini araşdırmış, ailə ixtilaflarının səbəblərini aydınlaşdırmış və təhlilini vermişdir;

7. Sözündə qəti, işində mübariz, qərarında prinsipial olan professor Akif Abbasov dərslikdə gender – insanın cəmiyyətdə davranışını müəyyən edən sosial cins və bu davranışın necə qəbul edilməsinin vəzifələrini, funksiyalarını və rolların konsepsiyasını müəyyən etmişdir;

8. Saysız-hesabsız əsərlər və tərcümələr müəllifi Akif Abbasov ümumtəhsil məktəblərində valideynlərin, xüsusilə gənc valideynlərin hamılıqla pedaqoji-psixoloji sərvət və biliklərə yiyələnmələri üçün səmərəli tədbirlər həyata keçirməyin metod və yollarını müəyyənləşdirmişdir.